# Qərbi Azərbaycan İcması Prezident İlham Əliyevin qərbi azərbaycanlılarla bağlı fikirlərinə dair bəyanat yayıb

**Qərbi Azərbaycan İcması Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində qərbi azərbaycanlılarla bağlı söylədiyi fikirlərə dair bəyanat yayıb.**

AZƏRTAC bəyanatı təqdim edir: "Qərbi Azərbaycan İcması olaraq biz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə 2025-ci il yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibəsində qərbi azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə öz evlərinə qayıdışına verdiyi dəstəyə görə təşəkkür edirik. Biz həmçinin Prezident İlham Əliyevin regional sülh və təhlükəsizlik ilə bağlı ifadə etdiyi baxışa tam dəstəyimizi ifadə edirik.

Ermənistanın siyasi dairələrində hakim olan irqi ayrıseçkilik və radikal millətçilik ideologiyası insan hüquqları və sülh üçün ən böyük təhdiddir. Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın 1993-cü ildə etdiyi, "Ermənistan və Qarabağın yad millətlərdən tamamilə təmizlənməsi"ni tarixi nailiyyət kimi təqdim edən çıxışının bu günlərdə yayılmış videoyazısı, ikinci prezident Robert Köçəryanın beynəlxalq təşkilatın tribunasından "Azərbaycanlılar və ermənilər etnik cəhətdən uyğunsuzdurlar" kimi irqçi açıqlaması, üçüncü prezident Serj Sarkisyanın və onun partiyasının faşist Qaregin Njdenin "Tsexakronizm" irqçi ideologiyasından ruhlanması bu dövlətin mahiyyətini əks etdirir.

Biz Prezident İlham Əliyevin Ermənistanın həyata keçirdiyi genişmiqyaslı militarizasiya siyasəti ilə bağlı ifadə etdiyi narahatlığı bölüşür və rəsmi İrəvanın silahlanmaya son verməsi tələbini dəstəkləyirik. Aqressiv keçmişə malik irqçi və revanşist ideologiyaların hökm sürdüyü Ermənistan hərbi güc ilə məsuliyyətlə davrana bilmir və onun silahlanması yolverilməzdir.

Ermənistanın biz qərbi azərbaycanlılara qarşı törətdiyi tarixi ədalətsizlikləri tam inkar yanaşmasından çıxış etməsi siyasətinin heç bir perspektivi yoxdur.

Biz Ermənistan hökumətindən qərbi azərbaycanlıların deportasiyasına görə üzr istəməyi, Qərbi Azərbaycan İcması ilə dialoqa başlamağı, qayıdışa şərait yaratmağı, Azərbaycan xalqına məxsus olan mədəni irsin dağıdılması və təhrif edilməsi siyasətinə son qoymağı, silahlanmanı dayandırmağı, üzərinə götürdüyü öhdəliklərinə uyğun şəkildə kommunikasiya xətlərini açmağı tələb edirik".

Azərbaycan.- 2025.- 9 yanvar (№ 3).- S.3.